Oktyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə təltif olunmuş təhsil işçilərinə Dövlət mükafatı və medalların təqdim olunması mərasimi keçirilib.

Bakının 20 saylı orta məktəbində keçirilən tədbirdə təhsil naziri Misir Mərdanov çıxış edərək ölkəmizdə təhsilə və təhsil işçilərinə göstərilən diqqət və qayğıdan danışıb, bu il müvafiq Prezident sərəncamları ilə 200-dən çox müəllimin müxtəlif mükafatlara layiq görüldüyünü bildirib. Nazir dövlətimizin başçısı İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində dinamik inkişaf edən Azərbaycanın dünya ölkələri arasında layiqli yer tutduğunu söyləyib. Misir Mərdanov, eyni zamanda təhsil sahəsində qarşıda duran vəzifələri diqqətə çatdırıb, müəllimlərə yeni nailiyyətlər arzulayıb.

Sonra 180-dən çox təhsil işçisinə müxtəlif Dövlət mükafatları və medallar təqdim olunub.